# Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Milli Aviasiya Akademiyası arasında əməkdaşlığın inkişafına dair anlaşma memorandumu imzalanıb

2025-ci il mart ayının 5-də Milli Aviasiya Akademiyasının (MAA) rektoru akademik Arif Paşayev və Azərbaycan Respublikasının Baş prokuroru, hüquq üzrə fəlsəfə doktoru Kamran Əliyev arasında görüş keçirilib.



Görüşdə əməkdaşlıq haqqında 23 sentyabr 2020-ci il tarixdə imzalanmış saziş çərçivəsində MAA və prokurorluq arasındakı səmərəli əlaqələri, kadr hazırlığı sahəsində qarşılıqlı fəaliyyətin əhəmiyyətini, habelə əldə olunan müsbət nəticələri nəzərə alaraq əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə müvafiq razılıq əldə olunub. Memoranduma əsasən, prokurorluq orqanlarının əməkdaşlarının tədrisdə, MAA-nın professor-müəllim heyətinin isə prokurorluğa qəbul olunan və fəaliyyətdə olan əməkdaşlarının ixtisasartırma prosesində iştirak etmələri, hüquqi və elmi maarifləndirmə istiqamətində birgə təlim kurslarının, seminar və mühazirələrin təşkili, "Hüquqşünaslıq" ixtisası üzrə bakalavr pilləsində təhsil alan tələbələrin prokurorluqda ictimai köməkçi (könüllü) qismində işə, MAA-nın professor-müəllim heyətinin prokurorluqda qanunvericilik aktlarının hazırlanması prosesinə cəlb edilmələri nəzərdə tutulur.

Azərbaycan.- 2025.- 7 mart (№51).- S.5.